## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 371

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# “KƏLİLƏ VƏ DİMNƏ” MƏNƏVİ KEYFİYYƏTLƏRİN TƏRBİYƏ OLUNMASININ VACİBLİYİ HAQQINDA

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования*
*Азербайджанской Республики*

# О ВАЖНОСТИ ВОСПИТАНИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ «КАЛИЛА И ДИМНА»

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# ON THE IMPORTANCE OF TRAINING THE MORAL QUALITIES OF "KALILA AND DYMNA"

**Xülasə.** “Kəlilə və Dimnə” əsərinin müəllifi Bəydəba insanları, böyüməkdə olan nəsli, kitabla tanış olan hər bir şəxsi düzlüyə, doğruçuluğa, ədalətə, yaxşılığa, insafa, mürvətə, səmimiyyətə, xeyirxah işlər görməyə, dostluqda sabitqədəm və vəfalı olmağa, şəxsiyyətlərarası münasibətləri düzgün qurmağa çağırır, bədxahlığı, mərdimazarlığı, namərdliyi, yalançılığı, satqınlığı, vəfasızlığı, qəddarlığı, kobudluğu pisləyir.

***Açar sözlər.*** *“Kəlilə və Dimnə”, mənəvi keyfiyyətlər, mənəvi keyfiyyətlərin formalaşdırılması, düzlük və doğruçuluq, yaxşılıq və xeyirxahlıq*

**Резюме.** Автор "Калила и Димна" Байдаба призывает людей, подрастающее поколение, каждого человека, знакомого с этой книгой, быть честным, правдивым, справедливым, сострадательным, искренним, делать добрые дела, быть стойкими и верными в дружбе, строить правильно межличностные отношения, осуждает предательство, неверность, жестокость, грубость.

***Ключевые слова.*** *«Калила и Димна», нравственные качества, формирование нравственных качеств, честность и правдивость, доброта и доброжелательность*

**Summary**. The author of "Kalila and Dimna" Baidaba urges people, the younger generation, every person familiar with this book to be honest, truthful, fair, compassionate, sincere, do good deeds, be persistent and faithful in friendship, build correct interpersonal relationships, condemn betrayal, infidelity, cruelty, rudeness.

***Keywords.*** *"Kalila and Dimna", moral qualities, the formation of moral qualities, honesty and truthfulness, kindness and benevolence*

Mənbələrdən məlum olur ki, “Kəlilə və Dimnə”ni e.ə. I əsrdə yaşamış Brhəmənlərin başçısı hind filosofu Bəydəba yazmışdır. Kitab təxminən III-IV əsrlərdə şifahi hekayələr şəklində yaranmışdır.

Deyilənə görə, “Kəlilə və Dimnə” hind hökmdarı Dəpşəlimə ithaf edilmişdir. Həm də Bəydəba öz işini ithaf etməklə məhdudlaşdırmamış, eyni zamanda şaha yeri gəldikcə məsləhətini də vermişdir.

Bu kitab nə üçün "Kəlilə və Dimnə" adlandırılmışdır. Kəlilə Və Dimnə kimdir?

"Kəlilə" - "doğrunun və dürüstlüyün"; "Dimnə" - "yanlışın və yalanın" rəmzidir. Bu adlar əsərdəki hekayə qəhrəmanları olan iki çaqqalı təmsil edir. "Kəlilə və Dimnə" beş fəsli özündə birləşdirir, hekayələr bir-biri ilə sıx surətdə bağlıdır. Bu fəsillərdə son dərəcə dəyərli tərbiyəvi fikirlər, həyati həqiqətlər, nəsihətlər vardır, təhsilləndirici və tərbiyələndirici səciyyə daşıyır. Əsərdə tərbiyənin müxtəlif sahələrinə aid qiymətli fikirlər vardır.

Bəydəba insanları, böyüməkdə olan nəsli, kitabla tanış olan hər bir şəxsi düzlüyə, doğruçuluğa, ədalətə, yaxşılığa, insafa, mürvətə, səmimiyyətə, xeyirxah işlər görməyə, dostluqda sabitqədəm və vəfalı olmağa, şəxsiyyətlərarası münasibətləri düzgün qurmağa çağırır, bədxahlığı, mərdimazarlığı, namərdliyi, yalançılığı, satqınlığı, vəfasızlığı, qəddarlığı, kobudluğu pisləyir.

"Kəlilə və Dimnə" hətta qonşuluq münasibətinə də diqqət yetirir. Qonşuluq qayda və qanunlarına əməl etməyi vacib sayır. Oxuyuruq: "Pis adamla qonşu olub dostluq edən dəniz səyyahı kimidir, batmaqdan yaxasını qurtarsa da, qorxu çəkməkdən qurtara bilməz" [1, s. 14].

Əsərdə dostluğun faydası və şərtləri üzərində dayanılır və göstərilir ki, "Ağıllı adamlar üçün dostluqdan əziz heç bir şey yoxdur" [1, 33].

Dostluğun şərtindən danışılarkən diqqət mərkəzinə aşağıdakı şərt gətirilir: "sirr saxlamaq". Belə bir fikir də önəmlidir ki, "Dostların ən xoşa gələni odur ki, höcət olmaya və hər işdə yaxından kömək edə (1, s. 82); "Ağıllı adamlar yanında dostluqdan qiymətli heç bir şey yoxdur. Çünki əmin-amanlıq dövründə, xoş gündə dostlarla yaxşı güzəran keçirib eyş-işrət edirsən, bədbəxtlik üz verdikdə, yaman gündə isə onlar dada çatar (1, s. 133); Hər kəs öz dostlarının verdiyi nəsihətə qulaq asmasa (bu nəsihətlər acı və ağır olsa da), onun işinin sonu peşmançılıq olar" (1, s. 82).

"Kəlilə və Dimnə"də göstərildiyi kimi, düz və təmiz adamlar arasında dostluq tez möhkəmlənib gec pozular. Bu dostluq kitabda təmiz qızıldan düzəldilmiş qabla müqayisə olunur, bu qabın gec sınıb tez bərpa olunacağı diqqət mərkəzinə gətirilir.

Həqiqi dostluğun bir çox şərtləri, qaydaları mövcuddur. "Kəlilə və Dimnə"də həmin şərtlərdən daha biri üzərində dayanılır. Fikir verək: "Dostluqda canını qurban verən adamın qədr-qiyməti, malını fəda edəninkindən çox-çox yüksəkdir" (1, s. 147).

"Canını qurban verən adam" deyiləndə söhbət dostluqda sadiq olmaqdan, dost yolunda hər cür fədakarlığa hazır olmaqdan, dostun sevincinə və kədərinə şərik olmaqdan, həmişə dostun yanında olmaqdan gedir. Etiraf etmək lazımdır ki, heç də hər insan əsl dostluğun şərtlərinə əməl etmir. Yalnız dostun xoş günlərində onun yanını kəsdirənlər, pis hünündə onun gözünə görünməyənlər vardır. Belə dostluğun ömrü az olur.

Mənəvi keyfiyyətlərə yiyələnmədə əql, istedad və kamalın öz yeri, öz mövqeyi var. Əql, istedad və kamal nəcib sifətlərə sahiblənməyə tələbat formalaşdırır. Haqqında danışılan əsərdə əql, istedad və kamala münasibət bildirilir. Diqqət yetirək: "İstedad, əql və kəmal iki növdür: biri fitri, yəni anadan gəlmə, digəri əməli, yəni təcrübə vasitəsilə əldə edilən. İnsanlarda ola fitri istedad taxtadakı yanma qabiliyyətinə bənzər. taxtaya od dəyməmiş yana bilmədiyi kimi, fitri istedad, əqli və kəmal da təcrübə və vərdiş olmadan özünü göstərə bilmir. Təcrübə insanda əql və kəmal oyadır" (1, s. 29).

"Kəlilə və Dimnə"də tədbirli, ayıq-sayıq olmaq müsbət keyfiyyət kimi dəyərləndirilir. Göstərilir ki, ağıllı adam mübarizə etməyə tələsməz, hazırlıq işi görmədən böyük və qorxulu işlərə başlamaz.

Doğru deyilmiş fikirdir. Əsərdə eyni zamanda bildirilir ki, ağıllı adam düşmənlə mümkün olduqca həlim rəftar edib narazılığı sülh və dostluq yolu ilə həll etməyə çalışır.

Əsərdə inama xüsusi qiymət verilir. Diqqət yetirək: "Ağıllı adamlar inama xəyanət etməzlər (1, s. 84). Qüvvətli iradə, ətrafında məsləhətçinin olması, məsləhətlə iş görmək təqdir edilir. "Kimin qüvvətli iradəsi, ağıllı məşvərətçiləri varsa, xoşbəxtdir. O, birincinin vasitəsilə zəfər çalar, ikincinin köməyi ilə xətərin qarşısını alar" (1, s. 163). Bu məsələ ilə bilavasitə bağlı olan aşağıdakı fikir də qiymətlidir: "Fikirləşmədən, götür-qoy edib başqalarının rəyini öyrənmədən böyük işlərə başlamağı ağıllı adamlar bəyənməzlər" (1, s. 165).

"Kəlilə və Dimnə"də vacib bilinən mənəvi keyfiyyətlər arasında yaxşılıq və xeyirxahlıq özünəməxsus yer tutur, yaxşı iş görə bilmək əsl hünər sayılır. Yaxşı işi heç bir yaxşı sözün əvəz

edə bilməyəcəyi də diqqətə çatdırılır. Yaxşı ad qoyub getməkdən söz düşəndə “Kəlilə və Dimnə”də deyilir: “acgöz və həris olma” (1, s. 48).

Əsərdə düzlük və dosğuçuluğa önəm verilir. İnsanlar, gənc nəsil düzlük və doğruçuluğa çağırılır. Düzlük və doğruçuluğun insana baş ucalığı gətirəcəyinə inam yaradılır. Bu xüsusda “Kəlilə və Dimnə”də deyilir: “Dünyada düzlükdən daha yaxşı bir dost ola bilməz. Yalnız düzlük vasitəsilə tez varlanmaq olar. Bu dövlət – paylanmaqla azalmaz, xərclənməklə qurtarmaz” (1, s. 48).

“Kəlilə və Dimnə”də müsbət mənəvi keyfiyyətlərə yiyələnməyin vacibliyi göstərildiyi kimi, mənfi keyfiyyətlər tənqid olunur və onlardan uzaq durmaq məsləhət bilinir. İlk növbədə düşkünlük pislənir. İnsanlara müraciətlə heç bir şeyin düşkünü olmamaq məsləhət görülür. Oxuyuruq: “Ağıllı adam üçün düşkünlükdən, doğru yoldan azıb öz arzu yükünü şübhələr küləyi əsən yerə və ya etibarsızlıq havası olan evə qoymaqdan daha zərərli heç nə ola bilməz. Çünki insanlar əksərən düşkünlük və ya buna bənzər şeylər üzündən cəhənnəmə gedirlər” (1, s. 41).

Yaxşı və pis insanlar haqqında deyilmiş fikirlər xüsusilə diqqəti cəlb edir. Əsərdə belə bir fikir irəli sürülür ki, “hünər sahibləri həmişə istedadı olmayan paxıl adamlar tərəfindən məhv edilirlər, alçaq və rəzil adamların nifrət və qəzəbinə səbəb olarlar”. Bu fikir təsadüfən işlədilmir. Onda dərin həqiqət gizlənmişdir. Elə şəxslər vardır ki, istedadsız, qabiliyyətsiz olduqlarından öndə gedənlərə, iş bacaranlara paxıllıq edir, hər vəchlə onları gözdən salmağa, haqqında iftiralar yaymağa başlayır, bir sıra hallarda istədiklərinə çatırlar. “Kəlilə və Dimnə”də yazılıb: “İstedadsız, paxıl, alçaq və rəzil adamlar istedadlı və alicənab adamlardan çox olduqlarına görə həmişə qalib gələrlər” (1, s. 89).

Xain və tamahkar şəxslər barədə də əsərdə qiymətli fikirlər vardır. “Kəlilə və Dimnə” xain adamları əhf etməyi sadiq adamları öldürmək demək olduğunu diqqətə çatdırır. Odur ki, xain adamların cəzalandırılmasını vacib bilir. “Xain və bədcins adamlar arzu etdikləri vəzifəni alana qədər səmimi və sədaqətli olurlar. Elə ki, bu vəzifəni aldılar, layiq olmadıqları daha yüksək vəzifələr xəyalına düşər və bunun üçün hiylə və xəyanətə əl atarlar” (1, s. 81).

Tamahkar adamlardan söz açılanda belə bir fikir irəli sürülür: “Tamahkar adamın pul xatirinə təhlükəli, qorxulu, əziyyətli və məşəqqətli səfərlərə çıxması səxavətli adamın əlini uzadaraq pul qabını götürməsindən asandır” (1, s. 163).

Əsərdə fitnəkar insanlardan da söz açılır. Məlun olduğu kimi, fitnəkar adamlar ona-buna qara yaxır, o kişiyə, o qadına böhtan deyir. Əsərdə bildirilir ki, fitnəkar adamların böhtanları yaxşı adamlar barədə şübhə toxumu səpir, belə yalanlara inananlar axırda peşman olurlar.

“Kəlilə və Dimnə” insanlara, gənc nəslə öz məsləhətini belə verir: “İşlərin ən yaxşısı odur ki, başlanğıcı xoş, sonu xeyirli olsun və hamı tərəfindən təriflənsin. Təriflərin ən çox ürəyə yatanı odur ki, böyük və adlı-sanlı adamlar tərəfindən edilsin. Xasiyyətlərin ən bəyənilmişi odur ki, həlim və təmiz ola. İnsanların ən dövlətlisi odur ki, acgöz və həris olmaya. Adamların ən kamili odur ki, dövlətdən qürrələnib yoxsulluqdan ruh düşkünlüyünə qapılmaya. Yatağı oddan, balıncı ilandan olan adamın yuxusu şirin ola bilməz” (1, s. 84).

Həmin sözlərdə dərin həqiqət vardır.

Qeyd etdiyimiz kimi, “Kəlilə və Dimnə” təxminən III-IV əsrlərdə şifahi hekayələr şəklində yaranmışdır. O dövrdən neçə əsr ötmüşdür. Lakin Şərqin bu böyük sənət abidəsi bu gün də sevilə-sevilə oxunur, əsərdə irəli sürülmüş tərbiyəvi fikirlər insanların, yeniyetmə və gənclərin əxlaqınıbn saflaşmasında mühüm rol oynayır.

**Problemin aktuallığı**. “Kəlilə və Dimnə”dən mənəvi saflaşdırma məqsədilə istifadə olunması aktuallıq daşıyır.

**Problemin yeniliyi**. “Kəlilə və Dimnə”də mənəvi mənəvi keyfiyyətlərin tərbiyə olunmasının vacibliyi diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə dissertasiya üzərində işləyən dissertant və doktorantlar, magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Kəlilə və Dimnə. Bakı: Öndər, 2004.

**E-mail:** amiraliyeva_i@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 15.03.2020